AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 18.04.2019 |
| Qeydiyyat nömrəsi | 005 |
| Adı | Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2012-ci il 3 sentyabr tarixli 01 nömrəli Qərarı ilə təsdiq edilmiş “Nömrə resurslarının ayrılması və istifadəsi Qaydaları”nda dəyişiklik edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 02.05.2019 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 180.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201904180005 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 01.05.2019 |

“Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanının 13-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə”nin 5.11.1-ci yarımbəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2012-ci il 3 sentyabr tarixli 01 nömrəli Qərarı ilə təsdiq edilmiş “Nömrə resurslarının ayrılması və istifadəsi Qaydalarının 2.9-cu bəndinin ikinci abzasında “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyində” sözləri “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlığı Agentliyində” sözləri ilə əvəz edilsin.

2. Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi ilə bağlı zəruri tədbirlər görsün.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr,**
**nəqliyyat, rabitə və yüksək**
**texnologiyalar naziri** **Ramin Quluzadə**